**“Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 348; 1999, 11, maddə 609; 2000, 11, maddə 776; 2001, 9, maddə 576, 12, maddələr 733, 736; 2002, 12, maddə 706; 2004, 7, maddə 505, 12, maddə 976; 2005, 1, maddə 2, 12, maddə 1082; 2006, 11, maddə 923, 12, maddə 1018; 2007, 1, maddə 4, 12, maddə 1193; 2008, 2, maddə 49, 4, maddə 254, 6, maddə 462, 7, maddə 602; 2009, 12, maddə 970; 2010, 4, maddə 276, 11, maddə 949; 2011, 10, maddə 883; 2013, 11, maddə 1284, 12, maddə 1487; 2014, 10, maddə 1171; 2016, 4, maddə 657, 6, maddə 971; 2017, 3, maddə 336, 7, maddə 1279; 2018, 3, maddələr 369, 396, 5, maddələr 870, 894, 12 (I kitab), maddə 2502; 2019, 1, maddə 35, 3, maddə 380; 2020, 5, maddə 521, 6, maddə 667, 7, maddə 826, 8, maddə 1015) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 19.1-ci maddədə “vahid fondda” sözləri “dövlət sosial müdafiə fondunda” sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Dövlət sosial müdafiə fondu dövlətin mülkiyyətində olan, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarəçiliyi həyata keçirilən dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondudur.”;

1.2. 19.2-ci maddədə “vahid fondda” sözləri “dövlət sosial müdafiə fondunda” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2020-ci il
239-VIQD